*Küsmüşəm insanın həyatın əlinə alan,*
*Dərdə əlac tapıb, dərmanı olan,*
*Hər bir xəstəsinə ürəyi yanan,*
*Həkimlərdən incimişəm, küsmüşəm.*

*Bir çox dərd ağrının dərmanın tapan,*
*İynənin ucunda ümiddən tutan,*
*İnsanın qəlbindən kədəri atan*
*Həkimlərdən incimişəm, küsmüşəm.*

*Ürəkdə ağrını, qəmi dindirən,*
*Əlin şəfasıyla gözə nur verən,*
*Bir ana qəlbini duyub güldürən,*
*Həkimlərdən incimişəm, küsmüşəm.*

*Bəzən də əlacsız bir dərddir deyən*
*Ömürlük həyata bir bənddir deyən,*
*Elcanımı sözləriylə incidən*
*Həkimlərdən incimişəm, küsmüşəm.*

Anam dua edəndə deyirdi ki, "balaya dəymə!"

*Əl açıb dərgaha yalvarram, ilahi!"*
*Bir ana boynunu, nə olar, əymə,*
*Verdiyin hər övlad öz əmanətin.*
*Analar eşqinə balaya dəymə,*

*Canından can verib cana gətirən,*
*Qanından qan əmib qana gətirən,*
*Sənin əmrinlə dünyaya gətirən,*
*Analar eşqinə balaya dəymə.*

*Körpə güldü, nə açıldı, nə gördü.*
*Nə ömür yaşadı, nə günlər hördü.*
*Analar balasız yaşamaz ömrü,*
*Analar eşqinə balaya dəymə.*

*Belə yaranmışdır əvvəldən dövran,*
*Bala çağırışına söyləyər "ay can!"*
*Sənin əmanətin dünyada Elcan*
*Analar eşqinə Elcana dəymə.*

Məndən sonra deyəcəksiz (deməsəniz də cənnətdəyəm): "Yeni evin cənnət olsun, mələyim!"

*Gecələri yuxu getmir gözümə.*
*Sübhə qədər mən ölürəm, yatmıram.*
*Bu torpağın altında sən yatandan,*
*Mən üstündə gəzməyə yer tapmıram.*

*Baxışların hey izləyir ruhumu,*
*Yaşananlar bir gerçəkmi, yuxumu?*
*Ürəyimə hopdurduğum qoxunu,*
*Əllərimdən şux ətrini atmıram.*

*Baxışların hey izləyir ruhumu,*
*Yoxluğuna dözmək olmur, yuxumu?*
*Ürəyimə hopdurduğum qoxunu,*
*Əllərimdən ətirini atmıram.*

*Ayrılığın üz-gözündən öpürəm,*
*Qovuşmaqçün yer üzündən itirəm,*
*Əzrayılın yollarında bitirəm,*
*Nə edirəm, yenə sənə çatmıram.*

*Bu dünyada sənə həsrət qalandan,*
*Dicliyimi əllərimdən alandan,*
*Sən torpağın altında yurd salandan,*
*Mən üstündə gəzməyə yer tapmıram.*

Anaya göndər.

*Səsimə səs verin əl açıb göyə,*
*Uça yaradana dualar edək.*
*Qoy bütün övladlar sağlam yaşasın,*
*Biz də yaradana şükürlər edək.*

*Göylərdən min ağrı, min dərd gəlsə də,*
*Bir gülü budaqdan əymə, ay Allah.*
*Butun dərd-azarı analara ver,*
*Körpə balalara dəymə, Ay Allah.*

*Bütün yer üzünə yeni həyat ver,*
*Gözəllik bəxş eylə, məhəbbət göndər.*
*Körpə balalara gələn bəlanı,*
*Balaya toxunma, anaya dəymə.*

Bəzən mənə elə gəlir ki, gedəcəm, yol üstəyəm. Həyatdan məndən sonra yaşayanları bir birinə tapşırıram. Ata, ömür nağıldı. Mənim nağılım tez bitdi. Almalarımı özümlə aparıram. Anamı sənə tapşırıram. Baçım, ya qardaşım olarsa.... babanənəmi bir-birilərinə. Bax, ata, hər mənim üçün darıxanda göylərə bax və anamın boynuna sarıl. Orda olacam və boynunuza sarılacam.

Sizin Elcan.

***Yadigar TƏVƏKKÜL***